# AZƏRBAYCANIN ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN "HƏYAT BİLGİSİ" DƏRSLİKLƏRİNDƏ DİNƏ BAXIŞ: KVANTİTATİV VƏ KVALİTATİV TƏHLİL

***Elnurə Əzizova,***
*Azərbaycan İlahiyyat İnstitutu,*
*Dinşünaslıq kafedrasının dosenti*
*elnuraazizova@ait.edu.az*

## XÜLASƏ

Azərbaycanın dövlət məktəblərində müstəqil din dərsi tədris olunmur. Bununla birlikdə ibtidai və orta məktəblərdə tədris olunan "Həyat bilgisi" fənni çərçivəsində şagirdlərə din haqqında məlumat verilir. Bu məlumat vasitəsilə bir tərəfdən, şagirdlərə müxtəlif dünya dinləri haqqında ümumi dünyagörüşü sayılan əsas biliklər öyrədilir, digər tərəfdən, məktəbin qarşısında duran ən mühüm vəzifələrdən biri – milli və bəşəri dəyərlərə əsaslanan tərbiyə daha sistemli və nəticəyönümlü olaraq mənimsədilir.

Bu məqalənin məqsədi 1-9-cu sinif "Həyat bilgisi" dərsliklərində dinə baxışı araşdırmaqdır. 6-15 yaş qrupu şagirdlər üçün nəzərdə tutulmuş bu dərsliklərdə dinə baxış istifadə olunan üslub, məzmun və vizuallar baxımından təhlil olunacaq. Tədqiqatda kvantitativ məzmun analizi və kvalitativ mövzu analizi metodlarından istifadə olunub. Kvantitativ məzmun analizi vasitəsilə ümumilikdə din haqqında məlumat, onun dərslik və əlaqəli mətn içindəki yeri qruplaşdırılıb. Daha sonra aşağıdakı suallar kvalitativ metodla təhlil olunub: "Həyat bilgisi" dərsliklərində bütünlükdə din necə təmsil olunub? Din, əsasən, hansı anlayışlarla əlaqələndirilərək təqdim olunub? Dini biliklərin verilməsi zamanı hansı üslubdan istifadə olunub? Dinlər məzhəblərüstü yanaşma ilə təqdim olunubmu? Azərbaycanın özünəməxsus dini demoqrafiyası hansı səviyyədə diqqətə alınıb?

***Açar sözlər:*** *din tədrisi, orta məktəb təhsili, Həyat bilgisi, Azərbaycan*

## Giriş

### Orta məktəb dərslikləri dinşünaslıqda mənbə kimi

Son dövrlərdə internet və digər texnologiya imkanları sayəsində dərsliklərin gedərək əhəmiyyətini itirəcəyinə və təhsildə arxa plana düşəcəyinə dair müxtəlif fikirlərin mövcudluğuna baxmayaraq, dərsliklər həm orta, həm dəali təhsildə önəmli rol oynamağa davam edir. Dərsliklər zamana qənaət edilməsi, təcrübənin paylaşılması, həm müəllim, həm də şagirdə məzmun, çərçivə, həcm və ardıcıllığı

təmin etmə baxımından digər tədris materialları ilə müqayisədə əvəzolunmaz rola sahibdir (Eisner 1987, 11-13).

Bütün bu praktik imkanları ilə yanaşı, dərsliklər, sadəcə, biliklərin müəyyən yaş qruplarına görə pedaqoji cəhətdən sistemləşdirilərək, hər hansı dəyər yükündən müstəqil surətdə təqdim olunduğu kitablar deyil, həm də bu biliklərin ideoloji, siyasi, mədəni və elmi iddialarla təqdim edildiyi əsərlərdir. Dərsliklər hər şeydən əvvəl, aid olduqları dövlətin əlaqəli mövzuya rəsmi baxışını əks etdirir. Onlar aid olduqları ölkənin təhsil sisteminin müəyyənləşdirdiyi kurikulumun tələblərinə cavab verir. Dərsliklərdəki hekayələrdən insanlara, qaydalardan normalara qədər bir çox amil dövlətin dəstəklədiyi dəyərləri təmsil edir (Pingel 2010, 9-10). Buna görə də təqdim etdiyi məlumat və biliklə yanaşı, dərsliklər "*əxlaqi baxımdan nümunəvi şəxsiyyət və vətənpərvərlik*" kimi dəyərləri də təbliğ edir (Fleming 1990, 7). Bütün bunların təbii nəticəsi olaraq dərsliklər, həm də dövlətin vətəndaş yetişdirməsində və yaxud qlobal bir cəmiyyətin gələcək nəsillərinin hazırlanmasında mühüm vasitələr olaraq önəm daşıyır (Kramsch 2013, 24-25).

Qeyd olunan səbəblərə görə dərsliklər, sadəcə, deskriptiv metodla yazılmış neytral mətnlər deyil, cəmiyyətin şagirdlərə öyrədilməsini istədiyi rəsmi bilik mənbəyidir. Dərslik müəlliflərinin əlaqədar sahənin özünü təsdiqləmiş mütəxəssisləri sayılmalarına bağlı olaraq dərsliklər, həm də "doğru" biliklərin təqdim olunduğu mətnlərdir. Onlar "*bilənin öyrənmək istəyənə təqdim etdiyi əsas biliklər*" olma xüsusiyyəti daşıyır. Buradakı "*əsas biliklər*" həqiqəti əks etdirməsi iddiası ilə o dərəcədə qaneedici və inandırıcı üslubda yazılır ki, onları "*güc mətnləri*" adlandırmaq mümkündür (*Andreassen Bengt-Ove 2014, 1-15*).

Bu xüsusiyyətləri nəzərə alındıqda, ümumilikdə Tarix, Ədəbiyyat, Dil və s. fənlərlə əlaqəli dərsliklərin sosial elmlərin tədqiqat obyektinə çevrilməsi təbiidir. Xüsusilə din tədrisinə dair dərsliklərin dinşünaslıq sahəsinin tədqiqat obyektinə çevrilməsi tendensiyasının son illərdə tədricən artmasına bu prizmadan baxmaq mümkündür. Bunun çoxsaylı səbəbləri olmaqla birlikdə, ikisinin burada qeyd olunması daha məqsədəuyğundur. İlk olaraq bu, müasir toplumların multikultural və plüralist strukturu ilə yaxından əlaqəlidir. Bu halda, çoxluğu və azlığı təmsil edən dinlərin dərsliklərdə hansı prizmadan təqdim olunduğu məsələsi önəm daşıyır. Digər tərəfdən, ümumilikdə dinin gedərək daha çox sayda sosial və humanitar elmlərin araşdırmalarının predmetinə çevrilməsi bu marağın artmasında önəmli rol oynayır. Ötən əsrin əvvəllərində proqnozlaşdırıldığının əksinə, fərd və cəmiyyətin kimlik və mədəniyyət anlayışından, siyasi, iqtisadi, sosial və s. proseslərə qədər çox sayda məsələyə münasibətində dini baxışının təsiri azalmır, hətta bir çox cəmiyyətdə bu təsir gedərək artır.[1] Dinə baxışın formalaşmasında isə ailə və cəmiyyətlə yanaşı, təhsil sisteminin, xüsusilə orta təhsilin rolu danılmazdır.

---

[1] Son onilliklərdə "Pew Research Center", "Win-Gallup International Association", "World Values Survey" (WVS) kimi bir sıra nüfuzlu beynəlxalq qurum periodik olaraq dindarlıq səviyyələrini müəyyənləşdirən sorğular keçirir. Ölkələrin dindarlıq səviyyəsini müxtəlif aspektlərdən ölçən beynəlxalq indekslərin dəyərləndirilməsi üçün baxın. Brian J. Grim, "International Religion Indexes:

Din tədrisinə dair dərsliklərin dinşünaslığın tədqiqat obyektinə çevrilməsini bu sahənin nüfuzlu elmi jurnallarında mövzu ilə əlaqəli məqalələrin müntəzəm nəşr olunması prosesi müşayiət edir. Avstraliya Katolik Universitetinin elmi jurnalı olaraq "Springer" nəşrləri arasında dərc olunan "Journal of Religious Education", Routledge nəşriyyatının yayınladığı "British Journal of Religious Education", yenə Routledge nəşriyyatında Din Tədrisi Assosiasiyasının (Religious Education Association) rəsmi jurnalı kimi dərc olunan "Religious Education" jurnalları din tədrisi sahəsindəki dərsliklərin metodologiya və məzmun baxımından təhlilinə həsr edilmiş məqalələrin müntəzəm olaraq nəşr edildiyi nüfuzlu beynəlxalq jurnallardan bəziləridir.

Beynəlxalq elmi jurnallarla yanaşı, dərsliklərdə dinə baxış müxtəlif ölkələrin təcrübələrinin müqayisəsinə və yaxud bir ölkənin müvafiq dərsliklərinin fərqli perspektivlərdən tədqiqinə həsr olunmuş müştərək tədqiqatlarda da öz əksini tapır. Bengt-Ove Andreassen və James R.Lewisin redaktorluğu ilə 2014-cü ildə nəşr olunmuş "*Textbook Gods: Genre, Text and Teaching Religious Studies*" adlı əsərdə İsveçrə, İngiltərə, Norveç, Danimarka, Yaponiya, Avstraliya və Kanadada orta məktəb dərsliklərində bir konsept olaraq din və ayrı-ayrılıqda dinlərin tədrisi metodologiya, üslub, vizuallar, yanaşma və digər cəhətlərdən tədqiq olunur (*Andreassen Bengt-Ove 2014).* Kaisa Hahl, Pia-Maria Niemi, Rita Johnson Longfor və Fred Dervinin redaktorluğunda 2015-ci ildə nəşr olunmuş "*Diversities and Interculturality in Textbooks: Finland as an Example*" əsərində müxtəlif fənlərə aid dərsliklərdə plüralist və multikultural cəmiyyətdə dini fərqlilik mövzusu Finlandiya nümunəsində təhlil olunur (Hahl Kaisa 2015, 3-6). Son illərdə ERASMUS proqramı çərçivəsində Avropa Birliyinin maliyyələşdirdiyi REDCo[2], READY[3] və s. buna bənzər layihələr çərçivəsində dövlət məktəblərində din tədrisinin dövrün tələblərinə uyğun olaraq yenidən gözdən keçirilməsi təşəbbüsləri də mövzunun aktuallığını qoruduğunu göstərir.

Azərbaycanın dövlət məktəblərində müstəqil din dərsi tədris edilməsə də, 2004-cü ildən ümumtəhsil məktəblərində tədris olunan "Həyat bilgisi" dərsliklərində dinlə

Government Regulation", Interdisciplinary Journal of Research on Religion, Vol 2, 2006, s. 2 vd. Azərbaycanda dindarlıq səviyyəsinin təhlili ilə əlaqəli baxın. Əzizova Elnurə, Azərbaycan cəmiyyətindəki dindarlıq səviyyəsinin İslam dünyasındakı dindarlıq səviyyəsi ilə müqayisəsi, Azərbaycanda İslam: Dini Araşdırmalar Mərkəzinin keçirdiyi sosial sorğu nəticəsində hazırlanmış məqalələr toplusu, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı 2015, s. 52-73.

[2] "REDCo – Religion in Education. A Contribution to Dialogue or a Factor of Conflict in Transforming Societies of European Countries" layihəsi Avropa ölkələrində 14-16 yaşlı gənclər arasında dinə və dinin tədrisinə baxışın araşdırılması və yeni konsepsiyaların inkişaf etdirilməsi istiqamətində Estoniya, Rusiya, Norveç, Almaniya, Hollandiya, Fransa, İngiltərə və İspaniyadan partnyorların iştirakı ilə 2006-2009-cu illərdə həyata keçirilən KA2 layihəsidir. Jackson Robert, Miedema Siebren, Weisse Wolfram, Willaime Jean-Paul (Eds), Religion and Education in Europe Developments: Contexts and Debates, Munster: Waxmann Verlag GmbH: 2007.

[3] "READY – Religious Education and Diversity" layihəsi sahənin müəllimlərinin təcrübə və yanaşmalarından istifadə etmək məqsədilə, xüsusilə din tədrisinin dini təşkilatların deyil, dövlətin rəsmi qurumları tərəfindən tənzimləndiyi ölkələrdə din dərsi modelinin inkişaf etdirilməsi istiqamətində Almaniya, İngiltərə, Şotlandiya, İsveç, Avstriya və İtaliyadan partnyorların iştirakı ilə 2016-2018-ci illərdə həyata keçirilən KA2 layihəsidir.

əlaqəli əsas biliklər öyrədilir. Bu biliklərin məzmun və çərçivəsi Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün "Həyat bilgisi" fənni üzrə təhsil proqramı (kurikulum) nəzərə alınaraq hazırlanır. Dinlə əlaqəli biliklər "Həyat bilgisi" fənninin, ibtidai və əsas təhsil səviyyəsi üçün ümumi olan dörd məzmun xəttindən üçüncüsü, "3. Mənəviyyat" məzmun xətti üzrə təqdim olunur.[4] Mənəviyyat məzmun xətti üzrə şagirdlərin yiyələnməsi gözlənilən təlim nəticələri bunlardır:

1-4-cü siniflərdə:

Dünyanın yaranması ilə bağlı əsas elmi və dini dünyagörüşləri bilir.

Dinlərin təbliğ etdiyi mənəvi dəyərləri anlayır və onları xurafatlardan ayırd edə bilir (Azərbaycan Respublikasının Ümumtəhsil Məktəbləri üçün "Həyat bilgisi" fənni üzrə təhsil proqramı (kurikulumu), s. 19).

5-9-cu siniflərdə:

Kamil insanın formalaşmasında dinin rolunu dəyərləndirir, onun insan əxlaq və davranışlarına təsiri haqqında mülahizələrini bildirir (Azərbaycan Respublikasının Ümumtəhsil Məktəbləri üçün "Həyat bilgisi" fənni üzrə təhsil proqramı (kurikulumu), s. 21).

"Həyat bilgisi" dərsliklərində dinlə əlaqəli məlumatlar, "3. Mənəviyyat" məzmun xəttinin 3.3. standartının, 3.3.1., 3.3.2., və 3.3.3. alt-standartlarının tələblərinin yerinə yetirilməsi diqqətə alınaraq hazırlanır. [5] "Həyat bilgisi" dərsliklərində dinə baxışın qeyd olunan standart və alt-standartların tələblərinə hansı səviyyədə cavab verdiyini ölçmək və dəyərləndirmək bu məqalənin məqsədlərinin xaricindədir. Bununla birlikdə dini biliklərin təhlili zamanı, bəzən mövzuya aydınlıq gətirməsi məqsədilə məzmunun aid olduğu standart/alt-standart da qeyd olunub.

"Həyat bilgisi" dərsliklərinin ümumi səhifə sayı diqqətə alındıqda, dinlə əlaqəli biliklərə 1, 2, 3, 6 və 7-ci sinif dərsliklərində az (100-650 söz), 4, 5 və 8-ci sinif dərsliklərində orta (1000-1250 söz), 9-cu sinif dərslikliyində isə daha geniş (6000-dən çox) yer verildiyi müşahidə olunur[6]. Xüsusilə 1-3-cü sinif dərsliklərində təqdim olunan dinlə əlaqəli məlumatın ümumi həcmi 662 söz və 21 vizualın yerləşdirildiyi cəmi 6 səhifədən ibarətdir. Dinlə əlaqəli məlumatın 1000 sözdən artıq olduğu mövzular "İslam dini necə yarandı?", "İslam dininin yayılması", "Mövhumat nədir" (4-cü sinif dərsliyində 1189 söz), "Dini dözümlülük", "Səmavi və qeyri-səmavi dinlər", "İnanc sistemində oxşarlıq və fərqliliklər" (5-ci sinif dərsliyində 1005 söz), "Dini-əxlaqi dəyərlər" (8-ci sinif dərsliyində 1219 söz) haqqındadır. Həm mövzu sayının, həm də mövzuya ayrılmış söz, vizual və ümumilikdə səhifə sayının çoxluğu diqqətə alındıqda, 9-cu sinif dərsliyini istisna kimi dəyərləndirmək olar. "Tolerantlıq", "Mədəniyyətlərarası tolerantlıq", "Azərbaycanda dini tolerantlıq", "Dünyada müxtəlif dinlərə münasibət", "Multikulturalizm" və "Dünyanın dərk olunması" mövzuları 9-cu

[4]Digər məzmun xətləri "1. Təbiət və biz", "2. Fərd və cəmiyyət" və "4. Sağlamlıq və təhlükəsizlik"dir. Azərbaycan Respublikasının Ümumtəhsil Məktəbləri üçün Həyat bilgisi fənni üzrə təhsil proqramı (kurikulumu), s. 11.

[5]Məzmun xətləri üzrə standart və alt-standartlar üçün baxın Cədvəl 1 və Cədvəl 2.

[6] I-X siniflər üzrə Həyat bilgisi dərsliklərindəki dini biliklərin statistikası üçün baxın. Cədvəl 3

sinif dərsliyində 37 səhifədə 6021 söz və 63 vizual vasitəsilə təqdim olunub ki, bu, 1-8-ci sinif "Həyat bilgisi" dərsliklərində dinlə əlaqəli mövzulara ayrılmış ümumi həcmdən çoxdur.

## 1. "Həyat bilgisi" dərsliklərində "din"

"Həyat bilgisi" dərsliklərində "din" mövzusu dinin tərifi, mənşəyi, məqsədi, dinlərin təsnifatı, tanrı, peyğəmbər, vəhy kimi fövqəltəbii anlayışlar, dünyanın dərk olunması, insan hüquqları və tolerantlıq zəminində "dinin" təqdim olunması kimi məsələlər çərçivəsində araşdırılıb. Məqalədə dinə baxış ayrı-ayrılıqda dinlərin nümunəsində deyil, ümumi din konsepsiyası əsasında tədqiq olunub. Bu məqalənin həcm sərhədlərini aşacağı düşüncəsindən hərəkətlə, "Həyat bilgisi" dərsliklərindəki ayrı-ayrı dinlərlə əlaqəli məzmun və üslub analizinin müstəqil bir məqalədə araşdırılması nəzərdə tutulub.

### 1.1. Dinin tərifi

"Həyat bilgisi" dərsliklərində verilən din təriflərində iman, ibadət, dünyanı dərk etmə ehtiyacı, əxlaq və ictimai funksiya kimi amillər ön plana çıxarılır. 2-ci sinif dərsliyində islam dini kontekstində verilsə də "*Dinimiz imanımızdır. İman Allaha inanmaq və güvənmək deməkdir*" (İbrahimova 2014, 56) ifadələri ilə dinin tərifində iman faktoru vurğulanır.

Din tərifinin bir neçə nümunəsinə 5-ci sinif dərsliyində yer verilir, burada dinin "inanc sistemi" və "dünyanı dərk etmə şəkli" olduğu qeyd olunur. Dinə "dünya gerçəkliyini dərk etməyə aparan yol" tərifi verilərək, bu yolun böyük və cığırlarının çox olduğu, buna görə də dünya əhalisinin müxtəlif dinlərə etiqad etdiyi bildirilir (Məmmədova 2016/1, 71).

Dinin yalnız bu dünya ilə əlaqəli deyil, ölümdənsonrakı həyatla da irtibatlı olduğunun tərifinə 5-ci sinifdə yer verilir və "din Allah tərəfindən insanları dünya və axirət səadətinə qovuşduran ilahi inanc sistemi" adlandırılır. Eyni dərslikdə dinin mənbəyinin yaradana dayanan inanc sistemi olduğu vurğulanır: "Din dedikdə mənbəyi yaradana dayanan inanc sistemi nəzərdə tutulur" (Məmmədova 2016/1, s. 73). 5-ci sinif dərsliyində "Allah" anlayışının ön plana çıxarıldığı bir digər din tərifi İmmanuel Kanta istinad edilir: "*Din Allahın buyurduqlarını həyata keçirmək üçün bir vasitədir*" (Məmmədova 2016/1, 72).

Dinin tərifi ilə əlaqəli 1-5-ci sinif dərsliklərində ön plana çıxarılan iman və ibadət faktorunu 6-9-cu sinif dərsliklərində dünyagörüşü forması, əxlaq və ictimai funksiya əvəz edir. 6-cı sinif dərsliyində dinə "insanın dünyanı dərk etmək istəyindən yaranmış dünyagörüşü forması" olaraq tərif verilir və mənşəyi insana nisbət edilir (Məmmədova 2017, 24). 8-ci sinif dərsliyində də dinin insan təfəkkürünün məhsulu olması düşüncəsi qeyd olunur: "*Din – insan təfəkkürünün məhsuludur*" ( Məmmədova 2015, 60).

Dinin tərifində əxlaq ünsürünün ön plana çıxarıldığı tərifə 8-ci sinif dərsliyində rast gəlinir. Dinə "insanların səadətə çatmaq üçün inanaraq həyatlarına tətbiq etdikləri

əxlaqi dəyərlərin cəmi" şəklində tərif verilən dərslikdə əxlaqi dəyərlərin formalaşmasında dinin də danılmaz rol oynadığı, çoxallahlı və yaxud səmavi olmasından asılı olmayaraq, dinlərin təməlinin əxlaq olduğu qeyd olunur (Məmmədova 2015, 58). Eyni dərslikdə "dini ideyaların təbliğ olunduğu bütün kitablarda əsas təməlin əxlaqi dəyərlər" olduğu üzərində durulur (Məmmədova 2015, 60).

### 1.2. Dinin mənşəyi

Dinin tərifi mövzusuna olduğu kimi, mənşəyi məsələsinə də dərsliklərdə müxtəlif prizmalardan baxılır. İlk dəfə 3-cü sinif dərsliyində mövzu üzərində durulur və "Din nədir və necə yarandı?" sualına cavab olaraq din və Allah inancının mənşəyi, dinin yaranması və inkişafı təkamülçü nəzəriyyə əsasında izah olunur. Ölümdənsonrakı həyata olan inancın "qədim insanlar"ın etiqadlarında mühüm yer tutduğu qeyd olunur: "*İnsanlar lap qədim zamanlardan dinlərə etiqad edirlər. Onlar vəfat edən insanları iri küplərdə dəfn edir, onun yanına yemək, qab-qacaq, silahlar, geyim və bəzək əşyaları qoyurdular. Qədim insanlar inanırdılar ki, yaşadıqları dünyadan savayı, başqa bir dünya da vardır. Sonralar bu inamın əsasında müxtəlif dinlər yarandı*" (Mehdiyeva 2014, 84).

3-cü sinif dərsliyində Azərbaycanda mövcud olmuş dinlərdən nümunələrlə dinin tarixi inkişaf mərhələlərindən keçərək müasir dövrə gəldiyi qeyd olunur və ikiallahlı dindən təkallahlı dinə keçid vurğulanır: "*Uzaq keçmişdə Azərbaycan ərazisində zərdüştilik adlanan din yayılmışdı. Bu dinə etiqad edən insanlar inanırdılar ki, onların həyatını iki allah – Xeyir və Şər allahları idarə edir. Xeyir və Şər arasında daim mübarizə gedir. Xeyir həmişə Şərə qalib gəlir. Müasir dövrdə dünya əhalisinin çoxu təkallahlı dinlərə etiqad edir. Yəhudilik, xristianlıq və islam dini təkallahlı dinlərdir*" (Mehdiyeva 2014, 84).

Mətndə keçən "qədim zamanlarda" ifadəsi ilə ölümdənsonrakı həyat inancı əsasında dinlərin yarandığı, "uzaq keçmişdə" ifadəsi ilə zərdüştilikdən danışılaraq ikiallahlı din mərhələsinə keçildiyi, ardından "*müasir dövrdə*" "*dünya əhalisinin çoxu təkallahlı dinlərə etiqad edir. Yəhudilik, xristianlıq və islam dini təkallahlı dinlərdir*" (Mehdiyeva 2014, 84) ifadələri ilə dinin inkişafında son mərhələnin təkallahlı dinlər mərhələsi olduğu vurğulanır. Eyni mətndə işlədilən "*qədim zamanlarda*", "*uzaq keçmişdə*" və "*müasir dövrdə*" kimi ifadələrdən insanların ölümdənsonrakı həyata olan inancı əsasında dinlərin yarandığı, tədricən dinlərin iki və təkallahlı dinlərə çevrildiyi və müasir dövrdə ümumilikdə təkallahlı dinlərin mövcud olduğu şəklində dinlərin mahiyyətinə və inkişaf mərhələlərinə təkamülçü yanaşmadan baxılır.

Bununla birlikdə eyni mövzuda daha sonra "*dünyada təkallahlı dinlərdən başqa dinlərə də sitayiş olunduğu*" qeyd olunaraq buddizm və hinduizm kimi istisnalar olduğu göstərilir (Mehdiyeva 2014, 85). Dinin inkişaf mərhələləri ilə əlaqəli bənzər yanaşma 9-cu sinif dərsliyində də müşahidə olunur: "*İnsanlar heyvan və bütlərə sitayişdən başlayaraq tək, vahid Allaha inama qədər dini təfəkkürün intibah yolunu keçib, hazırda*

*insanların əksəriyyəti tək Allaha inama üstünlük verir, ən qədim təkallahlı din e.ə. I minillikdə Fələstində meydana gəlmiş iudaizm dinidir...*" (Məmmədova 2016/2, 107).

5-ci sinif dərsliyində dinlərin mənşəyinə görə səmavi və qeyri-səmavi olmaq üzrə iki qrupa ayrıldığı, "*səmavi dinlərin adından bəlli olduğu kimi vəhy mənbəyi olduğu*" qeyd olunur, xristianlıq, yəhudilik və islam nümunəsində bu dinlərin "*haqq dinlər*" adlandırıldığı da əlavə olunur (Məmmədova 2016/1, 73).

### 1.2.1. Tanrı anlayışı

Tanrı anlayışı ilə əlaqəli dərsliklərdə Allah, Yaradan, Böyük Yaradan, Uca Yaradan, İlahi Varlıq kimi ifadələr istifadə olunur. Xüsusilə ibtidai siniflərə aid dərsliklərdə Tanrı məfhumuna "*təkallahlı*" dinlər kateqoriyasında yer verilir. 1-ci sinif dərsliyində "*islam, xristianlıq və yəhudilik təkallahlı dinlər*" adlandırılır və "*bu dinlərə görə...*" dünya və insanların tək olan Allah tərəfindən yaradıldığı qeyd olunur (Kərimova 2018, 47). 3-cü sinif dərsliyində də hər üç dinin ortaq tərəfinin "Yaradan" olduğu vurğulanır: "*Dünyada üç təkallahlı din var. Bunlar islam, xristian və yəhudi dinləridir. Hər üç din də öyrədir ki, bütün varlıqların bir Yaradanı var. Ona görə də ona Böyük Yaradan deyirlər*" (İbrahimova 2014, 56).

9-cu sinif dərsliyində "dini etiqadın mərkəzində Allah dayandığı, insanların onu fərqli dillərdə fərqli sözlərlə adlandırdığı, lakin mahiyyət etibarilə onun hamı üçün eyni məna kəsb etdiyi, onun tək dünyanın tək və qüdrətli İlahi varlığı olduğu, dinin insanı öz hissləri vasitəsilə Allaha birləşdirdiyi" bildirilir və "dinlərə görə, Allaha yaxınlaşmanın yollarının çox olduğu" (Məmmədova 2016/2, 108) qeyd olunur.

### 1.2.2. Peyğəmbər və müqəddəs kitab anlayışı

Dərsliklərdə dinin mənşəyi və yaranma prosesi ilə əlaqəli qeyd olunan digər önəmli amillər "peyğəmbərlik" və "müqəddəs kitab" anlayışlarıdır. İlk dəfə 1-ci sinif dərsliyində peyğəmbərlik anlayışına rast gəlinir və "Həzrət Məhəmməd" islam dininin peyğəmbəri olaraq qeyd edilir. 2-ci sinif dərsliyində də "Həzrət Məhəmməd"in müsəlmanların peyğəmbəri olduğu bildirilir və peyğəmbərə "*Allahın sözlərini insanlara çatdıran elçi*" olaraq tərif verilir. Eyni dərslikdə xristianların və yəhudilərin də hər birinin öz peyğəmbəri və müqəddəs kitabı olduğu bildirilir (İbrahimova 2014, 56).

Ümumilikdə dərsliklərdə peyğəmbərlik anlayışı da Allah anlayışı kimi "təkallahlı" dinlərlə əlaqəli kontekstdə verilib: "*Yəhudilik dininin peyğəmbəri Musa, xristianlığın peyğəmbəri İsa, islamın peyğəmbəri Məhəmməddir*". Peyğəmbər təsəvvürü ilə birlikdə təkallahlı dinlərdə müqəddəs kitab təsəvvürü də qeyd olunur: "*Bu təkallahlı dinlərin müqəddəs kitabları vardır. Allah tərəfindən göndərildiyi üçün bu kitablara səmavi kitablar deyirlər. "Zəbur", "Tövrat", "İncil" və "Qurani-Kərim" səmavi kitablardır*" (Mehdiyeva 2014, 84).

1-9-cu sinif "Həyat bilgisi" dərslikləri arasında 3.3.1. və 3.3.2. alt standartlarının tələblərinə uyğun olaraq islam dini ilə əlaqəli ən geniş məlumatın verildiyi 4-cü sinif dərsliyində "*İslam dinini kim yaratdı*" sualı irəli sürülərək islamın Məhəmməd

Peyğəmbər tərəfindən yaradıldığı nümunəsində peyğəmbərin din qurucusu olduğu göstərilir (Mehdiyeva 2015, 43).

5-ci sinif dərsliyində "vəhy" və "peyğəmbər" mövzusu islam kontekstində işlənilib. "İslam dininə görə..." ifadələri ilə mövzunun islam nöqteyi-nəzərindən izah olunduğu bu mətndə "*...ilk insan Hz. Adəm eyni zamanda ilk peyğəmbərdir. Hz. Adəmdən Hz. İsaya qədər bütün peyğəmbərlər insanlara Allahın birliyini və ona necə ibadət ediləcəyini təbliğ etmişlər*" (Məmmədova 2016/1, 73) ifadələri ilə peyğəmbərliyin ilk insanla başlayan və Allaha ibadəti təbliğ edən bir qurum olduğu islam nöqteyi-nəzərindən izah olunub. Eyni mətndə müəllifin subyektiv fikri və yaxud ümumi qəbul olunmuş fikir olmadığını göstərmək məqsədilə "*mənbələrə görə*" istinad sözlərindən istifadə edilərək, "səmavi dinlərin Allah-Taala tərəfindən göndərilən sonuncu peyğəmbərinin" Məhəmməd Peyğəmbər olduğu bildirilib: "*...səmavi dinlərdən yəhudilik Hz. Musa, xristianlıq isə Hz. İsa tərəfindən insanlara çatdırılmışdır. Son olaraq Allah-Taala bütün insanları yenidən xəbərdar etmək üçün onlara Məhəmməd Peyğəmbər vasitəsilə İslam dinini göndərmişdir*" (Məmmədova 2016/1, 73). Son dinin islam dini olduğu Qurani-Kərimin "Maidə" surəsinin üçüncü ayəsinə istinad edilərək verilib: "*Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim*" (Məmmədova 2016/1, 73).

Dərsliklərdə müxtəlif yerlərdə "vəhy" anlayışı üzərində də durulur. 5-ci sinif dərsliyində "vəhy"in termin mənası "fikrin, hökmün Allah tərəfindən Peyğəmbərə verilməsi" (Məmmədova 2016/1, 73) olaraq göstərilir. Din-vəhy əlaqəsi üzərində 9-cu sinif dərsliyində də durulur, "*dünyada ən geniş yayılmış dinlərindən olan xristian, islam, iudaizmin əsas ideyasının verildiyi müqəddəs kitablara əsasən səmavi dinlər hesab edildiyi və bu kitablardakı nəsihətlərin, rəvayətlərin və hökmlərin məhz Allahın kəlamları olmaqla Onun insanla ünsiyyət vasitəsi*" (Məmmədova 2016/2, 107) olduğu qeyd edilir.

Nəticə olaraq hansı amilin ön plana çıxarılaraq tərifinin verilməsindən və yaxud mənşəyinin ilahi və ya bəşəriliyindən asılı olmayaraq, dərsliklərdə dinin fərd və cəmiyyət həyatında önəmli bir rol oynadığı, hətta bəzən qanunlardan daha çox təsir gücünə malik olduğu düşüncəsi hakimdir. "Həyat bilgisi" fənninin tədris olunduğu sonuncu, 9-cu sinfin dərsliyindəki aşağıdakı ifadələr bu yanaşmanı açıq şəkildə göstərir: "*...Bu gün din insanların həyat tərzinə, davranış qaydalarına, baxışlarına, hərəkətlərinə qanunlardan daha güclü təsir edir. Sovet İttifaqının iflası sübut etdi ki, insanları dindən ayırmaq, təcrid etmək mümkünsüzdür. Uzun illər dinləri qəbul etməyən sovet hakimiyyəti insanların dini inanclarını, adət-ənənələrini boğa bilmədi. Təqiblər insanların dini bağlılığını daha da artırdı...*" (Məmmədova 2016/2, 100).

### 1.3. Dinlərin təsnifatı

Dinlərin təsnifatı zamanı müxtəlif terminlərdən istifadə olunan "Həyat bilgisi" dərsliklərində aralarında dərəcə fərqi qoyulmadan dinlərin çoxluğu anlayışı hakimdir və bu anlayış əsasən 1-ci sinifdən etibarən, Azərbaycanın dini demoqrafiyasına

uyğun olaraq islam, xristianlıq və yəhudilik dairəsində təqdim olunur (Kərimova 2018, 47). Dinlərin təsnifatı ilə əlaqəli terminlərin istifadəsinə 2-ci sinifdən etibarən rast gəlinir. Burada dinlər "təkallahlı" və "qeyri-dinlər" olmaqla iki kateroqiyaya ayrılır. İslam, xristianlıq və yəhudiliyin dünyadakı üç təkallahlı din olduğu qeyd olunur. Hər üç dinin təlimlərində bütün varlıqların "Böyük Yaradan" adlanan bir Yaradanı olduğu, bu dinlərin bir digər ortaq xüsusiyyətinin "insanları sevməyə, elm, sülh və həqiqət tərəfdarı olmağa çağırmaq" kimi yüksək əxlaqi dəyərlər aşılamaq olduğu vurğulanır (İbrahimova 2014, 56).

3-cü sinif dərsliyində bu təsnifat "*səmavi kitab*" anlayışı ilə bir qədər də inkişaf etdirilir. Təkallahlı dinlər müasir insanın dini olaraq təqdim olunur. Təkallahlı dinlərə görə yerin, göyün, kainatın, yer üzündəki bütün insanların yalnız bir Yaradanı olduğu qeyd olunur. 2-ci sinifdə öyrədilən yəhudilik, xristianlıq və islamın təkallahlı dinlər olduğuna dair biliklərə adıçəkilən dinlərin peyğəmbərlərinin adları və "səmavi kitab" anlayışı da daxil edilir: "*Yəhudiliyin peyğəmbəri Musa, xristianlığın peyğəmbəri İsa, islamın peyğəmbəri Məhəmməddir*". Bu təkallahlı dinlərin müqəddəs kitablarının olduğu, bu kitabların "Allah tərəfindən göndərildiyi üçün səmavi kitablar" adlandırıldığı qeyd olunur və "Zəbur," "Tövrat", "İncil" və "Qurani-Kərim" səmavi kitablar adlandırılır (Mehdiyeva 2014, 84).

5-ci sinif dərsliyində dinlərin təsnifatına "haqq", "səmavi" və "qeyri-səmavi" din kateqoriyaları da daxil edilir. "Səmavi və qeyrı-səmavi dinlər" mövzusu çərçivəsində səmavi dinlər "Allah tərəfindən mələklər vasitəsilə peyğəmbərlərə göndərilən "vəhy" mənbəyi" olaraq təqdim olunur. Eyni zamanda, "haqq dinlər" də deyilən səmavi dinlərə xristianlıq, yəhudilik və islam dini nümunə göstərilir (Məmmədova 2016/1, 73). Həmin dərslikdə "qeyri-səmavi dinlər"in Allah tərəfindən göndərilmədiyi, insanlar arasında təşəkkül tapdığı qeyd olunur və "buddizm, zərdüştilik və sintoizm" qeyri-səmavi dinlərə misal göstərilir (Məmmədova 2016/1, 74).

1-8-ci sinif dərsliklərindən fərqli olaraq 9-cu sinif dərsliyində zərdüştilik də təkallahlı dinlər kateqoriyasında, hətta "monoteist dinlərin ilki" sayılmaqla birlikdə onun, Zərdüşt tərəfindən yazıldığı ehtimal edilən "Avesta"da iki əzəli başlanğıc – xeyir və şər dualizmi ilə müşayiət olunduğu qeyd olunur (Məmmədova 2016/2, 131). Eyni dərslikdə daha əvvəlki dərsliklərdə rastlanmayan "ənənəvi din" kateqoriyasına da işarə edilir (Məmmədova, 2016/2, 100). Dinlərin təsnifatında istifadə olunan digər bir termin "milli din" terminidir. 9-cu sinif dərsliyində "yəhudilərin iduaizmi, yaponların sintoizmi, çinlilərin daoizmi" milli dinlərə misal göstərilir (Məmmədova 2016/2, 107).

Dərsliklərdə yəhudilik, xristianlıq və islam kimi "təkallahlı", "səmavi" və ya "haqq" dinlərin ibadət və mərasimlərindəki fərqliliklərə baxmayaraq (Məmmədova 2016/1, 75), inanc və əməldə ortaq xüsusiyyətlərinin çox olduğu xüsusilə qeyd olunur. Bu dinlərə mənsub "möminlərin" hər insanın öz əməlinin bəhrəsini gördüyünə inandığı (Mehdiyeva 2014, 84), bu dinlərin insanları yaxşı əməllərə, təmizliyə, xeyirə səslədiyi, insanları bir-birinə düşmən yox, dost etdiyi, böyüyə hörmət etməyə, kiçiklərə, xəstələrə qarşı mərhəmətli olmağa çağırdığı və bu xüsusiyyətlərinə görə bu dinlərin əsrlər boyu öz varlığını qoruyub saxladığı qeyd olunur (Mehdiyeva 2014, 85). Bu dinlər Allah tərəfindən mələklər vasitəsilə

peyğəmbərlərə göndərilməsi (Məmmədova 2016/1, 73), əsas ideyasının verildiyi müqəddəs kitablardakı "nəsihət, rəvayət və hökmlərin məhz Allahın kəlamları olaraq Onun insanla ünsiyyət vasitəsi olması (Məmmədova 2016/2, 107), Uca Yaradanın tək olmasını qəbul etmək, yalnız Allahdan imdad istəmək, qəza və qədərə inanmaq kimi bütün səmavi dinlərə aid ümumi cəhətlərdə birləşdirilir (Məmmədova 2016/1, 75; Məmmədova 2017, 24).

### 1.4. Dinlərin məqsədi - əxlaq

Say olaraq çoxluqla ifadə olunub müxtəlif kateqoriyalarda təsnif olunsalar da, dinlərin ümumilikdə tək bir məqsədə xidmət etdikləri fikri dərsliklərdə ön plandadır. Beləliklə, səmavi, haqq, təkallahlı, Allah tərəfindən göndərilmiş kitab və ya peyğəmbərlərinin olub-olmaması onların ortaq məqsədə xidmət etməsinə mane deyil. Dinlər ən çox yaxşılığı təşviq edib pislikdən uzaqlaşdırması baxımından bir-birinə bənzəyir. İnsanın yaxşı əməlinə görə mükafatlandırılacağı, pis əməlinə görə cəzalandırılacağı, hər bir kəsin əməli kimi yaxşı və ya pis olduğuna dair buddizm və hinduizm kimi qeyri-səmavi dinlərdən də bu yanaşmaya nümunə göstərilir (Mehdiyeva 2014, 85).

1-ci sinif dərsliyində islam, xristianlıq və yəhudiliyin "insanları düzlüyə, halallığa, sülhə səslədiyinin" (Kərimova 2018, 47) ifadə olunması ilə başlayan bu yanaşma, daha sonrakı dərsliklərdə digər dinlərə şamil edilərək genişləndirilir. 2-ci sinif dərsliyində "təkallahlı dinlər" olaraq xristianlıq, yəhudilik və islamın inanc xaricindəki ortaq dəyərinin yüskək əxlaqi keyfiyyətlər aşılamaq olduğu fikri "*Bu dinlərin hamısı insanları sevməyə, elm, sülh, həqiqət tərəfdarı olmağa çağırır*" ifadələri ilə qeyd olunur (İbrahimova 2014, 56). 3-cü sinif dərsliyində "*Təkallahlı olsun və ya olmasın, dinlərin ortaq tərəfi onların təbliğ etdiyi dəyərlərdir*" (Mehdiyeva 2014, 85) ifadələri ilə "təkallahlı" dinlərin bu ortaq xüsusiyyəti ümumilikdə bütün dinlərə şamil edilir və dinlərin əsrlər boyu mövcudiyyətini qoruyaraq müasir dövrə qədər gəlib çatması onların insanları "*təmizlik, xeyir əməl, düşmənlikdən uzaqlaşmaq, dost olmaq, böyüyə hörmət, kiçiklərə və xəstələrə qarşı mərhəmətli olmaq*" kimi yaxşı əməllərə çağırması ilə əlaqələndirilir (Mehdiyeva 2014, 85). İslam, xristianlıq, yəhudilik, buddizm və hinduizmdə yaxşılığı təşviq, pis əməldən çəkindirmə xüsusiyyətinin ortaq olduğu qeyd olunur. Bununla birlikdə bu xüsusiyyətlərə dair dini mətn nümunəsi olaraq Qurani-Kərimdən sitat verilir: "*İslam dininin müqəddəs kitabında isə yazılıb: "Yaxşılıq da etsəniz, özünüzə etmiş olursunuz, pislik də...", "Doğru yol tutan yalnız özünə xeyir, haqq yoldan azan da ancaq özünə zərər edər*" (Mehdiyeva 2014, 85).

4-cü sinif dərsliyində din-əxlaq münasibəti müvafiq alt standartların tələblərinə cavab vermək məqsədilə Məhəmməd Peyğəmbərin nümunəvi şəxsiyyəti və yaxşı əməl kontekstindəki sözləri çərçivəsində genişləndirilir (Mehdiyeva 2015, 42). 5-ci sinif dərsliyində vahid Allah inancı ilə yanaşı, əxlaqi dəyərləri təbliğ etmək də səmavi dinlərin ortaq xüsusiyyəti olaraq göstərilir: "*Allah-Taala insanları yer üzündə nizamla yaşamağa, bir-biri ilə gözəl rəftar etməyə, onları Yaradanı tanımağa,*

*xeyirxah olmağa, yaxşı işlər görməyə, yalan danışmamağa, valideynlərə və özündən böyüklərə hörmət etməyə çağırır*" (Məmmədova 2016/1, 75).

7-ci sinif dərsliyində də dinlərin müxtəlif cəhətləri ilə yanaşı, insanları əxlaqlı və dürüst olmağa səsləməsi, bu cəhətlərin də mədəniyyətlərarası münasibətlərin yaranmasında mühüm rol oynadığı vurğulanır (Məmmədova 2014, 51). Eyni dərslikdə din-əxlaq münasibəti kontekstində "bütün dinlərin insanları əxlaqlı olmağa dəvət etdiyi" qeyd olunur, əxlaqi dəyərlərə "Qurani-Kərimdə çox yer verildiyi", "burada insanların gözəl əxlaqa, yüksək ədəbə dəvət edildiyi", "yaxşı əməl sahibi olan hər kəsə xoş həyat nəsib ediləcəyi və etdikləri yaxşı əməllərə görə mükafat veriləcəyi" məsələlərinə toxunulur (Məmmədova 2014, 53). 7-ci sinif dərsliyində müstəqil "Din" mövzusu xaricində də mənfi əxlaqi keyfiyyətlərin ortadan qaldırılmasında dinin rolu vurğulanır. "Dilin bəlaları: qeybət və iftira" adlı mövzuda hər iki mənfi vərdiş haqqında danışıldıqdan sonra, qeybətlə böhtanın arasındakı fərq, Məhəmməd Peyğəmbərə istinad edilən bir hədis çərçivəsində izah edilir (Məmmədova 2014, 60).

1-9-cu sinif "Həyat bilgisi" dərslikləri arasında müvafiq alt standartın tələblərinə cavab vermək baxımından din-əxlaq münasibətlərinin ən çox üzərində durulduğu 8-ci sinif dərsliyində xalqların mədəniyyətlərinin inkişafında dil və adət-ənənə kimi amillərlə yanaşı dinin də önəmli bir faktor olduğu vurğulanır (Məmmədova 2015, 56-58). Bu kontekstdə "dinin insanları daim əxlaqlı yaşamağa çağırdığı", buna görə də "dinin insanların səadətə çatmaq üçün inanaraq həyatlarına tətbiq etdikləri əxlaqi dəyərlərin cəmi" (Məmmədova 2015, 58) olduğu və "əxlaq anlayışının dində yerinin çox böyük olduğu", "dinlərin təməlinin əxlaq olduğu", "həm çoxallahlı dinlərin, həm də səmavi dinlərin əsasını əxlaq təşkil etdiyi" (Məmmədova 2015, 58), "dini ideyaların təbliğ olunduğu bütün kitablarda əsas təməlin əxlaqi dəyərlər" olduğu (Məmmədova 2015, 60), "əxlaq qaydalarının insanların uzunmüddətli həyat təcrübəsindən qaynaqlanan davranış kodeksləri" olduğu və "din vasitəsilə insanların vəhdət halında yaşamasının və birgəyaşayışın insan üçün əhəmiyyətli" olduğuna (Məmmədova 2015, 60) dair mövzular çərçivəsində dinlərin əsasının əxlaq olduğu və cəmiyyətdə birgəyaşayışı təmin etmə məqsədi daşıdığı fikri möhkəmləndirilir.

8-ci sinif dərsliyində din-əxlaq münasibətinə dair ümumi fikirlər zərdüştilik, yəhudilik və xristianlığın müqəddəs mətnlərinə istinad edilərək dəstəklənir, hər üç dinin müqəddəs kitabının insanları mənəvi kamilliyə, əxlaqi saflığa səslədiyi, bəd əməldən, cinayətkarlıqdan çəkindirdiyi, vicdanlı işləməyə istiqamətləndirdiyi qeyd olunur (Məmmədova 2015, 58). Eyni dərslikdə geniş şəkildə zərdüştilik, ardından qısaca yəhudilik və xristianlıqdan nümunələr qeyd olunduqdan sonra, islamda əxlaq mövzusu xüsusilə Məhəmməd Peyğəmbərdən sitatlar gətirilərək insan sevgisi, vicdan, təmkinli olmaq, mülayimlik, yaxşılıq, təvazökarlıq, qonaqpərvərlik, həya, şərəf, bağışlama, yetimlərə və məzlumlara əl tutma, övlad tərbiyəsi, valideynə qayğı, ailə dəyərləri və s. kimi keyfiyyətlər çərçivəsində din-əxlaq əlaqəsi geniş şəkildə izah olunur (Məmmədova 2015, 58-60).

Dinlərə baxışda relativist və post-modern yanaşmanın daha çox müşahidə olunduğu 9-cu sinif dərsliyinə görə dinin məqsədi insanı öz hissləri vasitəsilə Allaha

birləşdirmək və insanın ona yaxın olmaq üçün pis əməllərdən çəkinməsi, əxlaqlı olmağa çalışması, mənəvi kamilliyə istiqamətlənməsidir (Məmmədova 2016/2, 108). Dinlərin müxtəlifliyinin səbəbi insanların həyata baxışlarındakı və inanclarındakı fərqlilik hesab edilir və Konfutsinin "dünyada çox yollar var, lakin onların hamısı bir məqsədə doğru aparır. Yüz üsul var, lakin nəticə həmişə birdir" aforizmi nümunə verilərək (Məmmədova 2016/2, 106) bütün fərqliliklərinə baxmayaraq, dinlərin əslində ortaq məqsədə xidmət etdiyi fikri müdafiə olunur. Bu yanaşma "dinin əsas məqsədinin əxlaq olduğuna" dair M.F.Axundzadənin fikri ilə dəstəklənir (Məmmədova 2016/2, 121). Eyni dərslikdə din digər mənəvi tələbatlarla birlikdə cəmiyyətin mənəvi həyatını təşkil edən bir amil olaraq təqdim olunur və "insanın mənəvi aləminin formalaşmasında dinin əvəzsiz rol oynadığı" qeyd olunur (Məmmədova 2016/2, 122). "Bütün dinlərin əsas xəttinin xeyirxahlıq və mərhəmət olduğu", insanların Allah naminə pis əməllərdən çəkinib xeyirxahlıq etdiyi qeyd olunaraq "din və mərhəmətin eyni məzmunlu məfhumlar" olduğu, bu səbəbdən, "heç bir dinin insanı ölümə, müharibəyə, vəhşiliyə və münaqişələrə səsləmədiyi" fikri müdafiə olunur. "İslam dininin insanları xeyir işlərə cəlb edən ən böyük humanist dinlərdən biri" olduğu, Ramazan və Qurban bayramları, nəzir vermək, sədəqə paylamaq, imkansızlara əl tutmaq, yetimin malına toxunmamaq kimi xüsusiyyətləri ilə islamın əsasında əxlaq prinsiplərinin olduğuna diqqət çəkilir (Məmmədova 2016/2, 124).

## 2. Dünyanın dərk olunması kontekstində din

Dərsliklərdə dinə baxışı müəyyənləşdirən digər bir mövzu, dünyanın dərk olunmasında dinin rolu ilə əlaqəli yanaşmadır. Ümumilikdə dərsliklərdə dini və elmi dünyagörüşün bir-birinə alternativ olaraq təqdim olunduğunun nümunələrinə rast gəlmək mümkündür; məsələn: 8-ci sinif dərsliyində gənc nəsillərin "istər dinlə, istər elmlə" birgəyaşayın faydaları və əxlaqi dəyərlərin formalaşmasının mahiyyətini anlamasının və birgəyaşayış qaydalarına əməl etməsinin vacibliyi vurğulanır (Məmmədova 2015, 60). 9-cu sinif dərsliyində dünyanın dərk olunmasının elm, din və mifologiya kimi müxtəlif formalarından nümunələr verilir. Mifologiya "dünyanın dərk olunması ilə bağlı ən qədim düşüncə" olaraq təqdim olunur. Elm isə dünyanın dərk olunmasında əsas düşüncə forması olaraq göstərilir (Məmmədova 2016/2, 129).

9-cu sinif dərsliyində "Dünyanın dərk olunması" mövzusunda dünyanın mənşəyi və mahiyyəti, insan, onun həyatının mənası və məqsədi, insanın dünyada yeri və buna bənzər mövzuların təqdim olunmasında materialist və dini dünyagörüş bir-birinə alternativ olaraq verilir. Dünyanın necə, nə vaxt və kim tərəfindən yaradılmasına dair sualların tarix boyu mövcud olduğu, təbiətin insanla əlaqəsi olmadan mövcud olduğu düşüncəsi vurğulanır: "*Təbiət insanların şüur, iradə, istək və arzularından asılı olmayaraq mövcud olmuşdur, insanlar olmadığı zamanda da təbiət mövcud olmuşdur*". Dərslikdə bu yanaşmanın xüsusilə vurğulanmasının səbəbi də göstərilir: "*Bu cəhəti ona görə xüsusi olaraq qeyd etmək lazım gəlir ki, bunun əksini iddia edən fəlsəfi cərəyanlar da mövcuddur*" (Məmmədova 2016/2, 129).

Burada din “*insan və dünyanın yaradılışı, həyatın mənası və məqsədi kimi mövzular haqqında fikir və ehkamların Allah kəlamı ilə təqdim olunduğu dünyagörüşünün digər tarixi forması*” kimi göstərilir (Məmmədova 2016/2, 129). Dini dünyagörüşün “teist” və “panteist” kimi müxtəlif formaları üzərində durulur. “Teist” düşüncə təqdim olunarkən “orta əsrlərdə” ifadəsindən istifadə etməklə müasir dövrdən uzaq olduğu düşüncəsi ön plana çıxarılır; məsələn: 9-cu sinif dərsliyində mövzunun təqdim olunması zamanı iki yerdə “orta əsrlər” zaman məfhumundan istifadə edilir: “*Orta əsrlərdə deyilirdi ki, müqəddəs yazılar Allahın kəlamlarıdır; Allah özü və yaratdıqları haqqında əsl həqiqətləri vəhylər*[7] *şəklində peyğəmbərlər vasitəsilə insanlara bəyan edir. Belə insanları teist adlandırmışlar*” (Məmmədova 2016/2, 133) və “*Orta əsrlərdə təbiət və dünya haqqında müxtəlif baxışlar sistemi formalaşmışdır. Bu dövrdə hökmran olan dini dünyagörüşü təbiət haqqındakı təsəvvürlərə də ciddi təsir göstərmişdir. Hər şeyin Allah tərəfindən yaradılması və idarə olunması fikirləri həm xristianlıqda, həm də İslam dinində öz əksini tapmışdır*” (Məmmədova 2016/2, 131).

9-cu sinif dərsliyində dünyanın dərk olunması ilə əlaqəli panteist dünyagörüşünün təqdim olunduğu üslub teist dünyagörüşünün təqdimində istifadə olunandan fərqlidir. İbn Sina, N.Gəncəvi, ibn Rüşd, Biruni kimi alimlərin əsərlərindən və fikirlərindən nümunələr gətirilərək, “*bu dahilərin Allaha inandığı*” qeyd olunur (Məmmədova 2016/2, 131-132). Orta əsrlərin dahi mütəxəssislərinin bir çoxunun təbiəti əsas götürdüyü və insanın iradə gücünə inandığı, bununla birlikdə E.Miyanəçi, F.Nəimi, İ.Nəsimi, C.Bruno nümunəsində bu dahilərin bir çoxunun ateist olmadığı və Allahın təbiətin içərisində, onun sonsuz cisim və proseslərində olduğunu müdafiə edən panteist mövqedən çıxış etdikləri bildirilir. XIV əsrdə meydana çıxmış hürufilik fəlsəfi-dini hərəkatı və banisi olan Nəiminin insanın əqli-mənəvi təkamüldən keçərək Tanrı səviyyəsinə qədər yüksələn kamil insana çevrilə biləcəyi inancı qeyd olunur və “*məhz belə düşüncəyə sahib olduğuna görə Nəiminin zəmanəsinin ən kamil insanı hesab edildiyi*” (Məmmədova 2016/2, 132-133) bildirilməklə dini dünyagörüşün panteist nümunəsi daha pozitiv ifadələrlə təqdim edilir.

Bütün qeyd olunanlarla birlikdə, həm dini, həm də materialist dünyagörüşün “*tarix boyu inkişaf mərhələsi göstərdiyi, indi də heç birinin sübut olunmadığı və hansı nəzəriyyənin doğru olduğunu bəşər cəmiyyətinin inkişafının*” təyin edəcəyi bildirilir və bu nəzəriyyələrlə fəlsəfə elminin məşğul olduğu vurğulanır (Məmmədova, 2016/2, 133). Bununla birlikdə Polşa alimi N.Kopernikin kəşf etdiyi Heliosentrik sistemin təbiət haqqındakı elmlərdə, təbiətə olan baxışlarda böyük bir çevriliş yaratdığı və “dini dünyagörüşə sarsıdıcı zərbə endirdiyi” (Məmmədova 2016/2, 133) şəklində ümumiləşdirməyə də rast gəlinir.

---

[7] Dərslikdə “Vəhy - fikrin, hökmün Allah tərəfindən peyğəmbərə xəbər verilməsi” şəklində şərh olunur (Məmmədova 2016/2, 133).

### 3. İnsan hüquqları və tolerantlıq zəminində din

Dərsliklərdə dinə baxışla əlaqəli bir digər önəmli məsələ, dinin insan hüquqları çərçivəsində dəyərləndirilməsidir. Bu yanaşma 1-ci sinif dərsliyində "Dini zorla qəbul etdirməyin mümkün olmadığını, hər insanın dinini özü seçdiyi" (Kərimova 2018, 47), 2-ci sinif dərsliyində "dinə inanmağın, onu qəbul etməyin könüllü olması" (İbrahimova 2014, 56), 3-cü sinif dərsliyində isə "Qurani-Kərimdə dində məcburiyyət olmadığının göstərilməsinə" (Mehdiyeva 2014, 85) dair nümunələrlə xüsusilə ibtidai təhsildə təkrarlarla vurğulanır.

Din insan hüquqları zəminində ən geniş şəkildə 9-cu sinif dərsliyində dəyərləndirilir. Burada "din seçiminin sərbəst olması, hər kəsin dini əqidəsini ifadə etmək və yaymaq hüququ olması, insanların dini etiqadında, ibadətlərində, dini ayin və mərasimlərin icrasında iştirak etməkdə, dini öyrənməkdə və təbliğ etməkdə sərbəst olması" demokratik ölkələrin bir xüsusiyyəti olaraq göstərilir (Məmmədova, 2016/2, 109). Azərbaycan Respublikasının Konstitusiyasının 48-ci maddəsinin bəndləri verilərək, hər kəsin din seçimində və dinə münasibətdə azad olduğu qeyd olunur. Beləliklə, dinin dövlətdən ayrı olduğu demokratik bir ölkə olaraq Azərbaycan Respublikasında din azadlığı üçün vacib olan "hüquqi bazanın" təmin edildiyi əsaslandırılır (Məmmədova 2016/2, 103).

Demokratik ölkələrdə din seçiminin insan hüquqları çərçivəsində dəyərləndirildiyi düşüncəsindən hərəkət etməklə birlikdə, 9-cu sinif dərsliyində təcrübədə insanların dinə münasibətinin iki formada müəyyənləşdiyi qeyd olunur. Birinci halda insanın doğulduğu ailənin, mənsub olduğu xalqın və millətin tarixən sitayiş etdiyi dinin "qeyd-şərtsiz" qəbul edilməsinin böyük rolu var. Bu halda insan mənsub olduğu dini öz milli kimliyinin və adət-ənənəsinin ayrılmaz bir hissəsi olaraq görür, valideynlərinin dinə olan münasibətlərinə əsasən müəyyənləşdirir. İkincisi isə müstəqil şəkildə, "şəxsiyyətin öz əqidəsinə və mənəviyyatına uyğun olaraq könüllü şəkildə" seçilir, milli kimliyindən asılı olmayaraq, dini ayinlərin tələblərini və vacibliyini dərk etmək, yaxud da digər dini təbliğatın nəticəsində qəbul etməklə mümkün olur (Məmmədova 2016/2, 109).

Demokratik ölkələrdə dinin mövqeyinin insan azadlıqları çərçivəsində dəyərləndirilməsi xaricində dərsliklərdə din bəşər tarixi boyu xalqların tolerantlıq və dözümlülük meyarı olaraq təqdim edilir. Xüsusilə tarix boyu müxtəlif dinlərin birgəyaşayışına nümunə olaraq Azərbaycan təcrübəsi üzərində durulur. 1-9 sinif dərsliklərinin əksəriyyətində Azərbaycan əhalisinin əksəriyyətinin müsəlman olması ilə yanaşı, xristian və yəhudilərin də tarix boyu sülh və əmin-amanlıq içində yaşadığı qeyd olunur (İbrahimova, 2014, 56; Mehdiyeva, 2015, 45; Məmmədova 2016/1, 72; Məmmədova 2017, 22; Məmmədova 2016/2, 99 və d.). Azərbaycan xalqının müxtəlif din mənsublarına qarşı tolerantlıq nümayiş etdirməsinin, yalnız demokratik dövlətlərin din azadlığı çərçivəsində təqdim etdiyi müasir bir yanaşmanın nəticəsi olmadığı, əksinə tarixi inkişaf xüsusiyyətinin, coğrafi mövqeyinin, əhalisinin tərkibinin Azərbaycan torpaqlarının bütpərəstlik, zərdüştilik, xristianlıq, yəhudilik, islam və s. müxtəlif dinlərin qovuşmasına əlverişli bir məkan olması ilə

əlaqələndirilir. Beləliklə, tarixi kökləri keçmişə dayandırılan tolerantlığın (Məmmədova 2016/1, 72; Məmmədova 2017, 22) bu gün də öz qüvvəsini qoruduğu, Azərbaycanda dini tolerantlığın yalnız siyasi və hüquqi müstəvidə deyil, ünsiyyət forması olaraq tətbiq olunduğu, Azərbaycanda yaşayan yəhudi və xristian (pravoslav) din mənsubları ilə əlaqəli 5-ci sinif dərsliyindəki bu nümunə əsasında verilir: "*İbrahimin dostları David yəhudi, Aleksey rusdur. Onlar İbrahimgilə qonaq gəlmişdilər. İbrahimin anası onları qucaqlayıb öpdü və "Siz İbrahimin qardaşlarısınız" deyə müraciət etdi.*" Mətnin sonunda şagirddən ananın sözlərinə münasibət bildirməsi istənilir (Məmmədova 2016/1, 72).

5-ci sinif dərsliyindəki bu nümunə əsasında verilən Azərbaycanın dini tolerantlığı düşüncəsi 9-cu sinif dərsliyində H.Əliyevdən verilən "*Azərbaycan dünyanın bütün səmavi dinlərinin yüksək mənəvi dəyərlərini özündə əks etdirən zəngin mənəvi irsə malikdir. Məhz buna görə də dialoqa səsləyən çağırışlar, dini və etnik mənsubiyyətdən asılı olmayaraq, hər bir azərbaycanlı tərəfindən tam dəstəklənir. Dostluq və əməkdaşlıq ab-havasının həmişə hökm sürdüyü ölkəmizdə dini dözümlülük və tolerantlıq artıq xalqımızın bir həyat tərzinə çevrilməkdədir*" sitatı ilə möhkəmləndirilir və Azərbaycanın dini tolerantlıqdakı rəsmi mövqeyi əsaslandırılır (Məmmədova 2016/2, 99).

Dərsliklərdə Azərbaycanda dini tolerantlığın tarixi miras və mövcud dövlət siyasətinin mühüm bir hissəsi kimi göstərilməsi və dini dözümlülüyün/tolerantlığın inkişaf etdirilməsində islam dininin də rolu olduğu vurğulanır (Məmmədova, 2016/1, 72). 5-ci sinif dərsliyində Azərbaycanın tarixi tolerantlığı H.Əliyevin sözləri ilə əsaslandırılır: "*Dünyada bir çox din mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar İslam dini ilə fəxr edərək,eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmiş, düşmənçilik etməmiş, ədavət aparmamış və heç bir başqa xalqı dinimizə itaət etməyə məcbur etməmişik...*" (Məmmədova 2016/1, 72).9-cu sinif dərsliyində Azərbaycan Respublikasının öz müstəqilliyini bərpa etdikdən sonra "dini tolerantlığı formalaşdırmağı və vətəndaşların bu ruhda yetişdirməyi" qarşısına ən vacib bir məqsəd olaraq qoyduğu" qeyd olunur (Məmmədova 2016/2, 103).

3.3.1. alt standartının tələblərinə uyğun olaraq Azərbaycanın dini tolerantlıq sahəsindəki siyasəti və bunun müsbət nəticələri, tolerantlıq mövzusuna geniş yer verilən 9-cu sinif dərsliyində daha ətraflı təqdim olunur, bəşəriyyəti daha çox narahat edən problemlərdən biri olaraq hələ də dünyada dini tolerantlığın bərqərar olmadığı müasir dövrdə, bir çox ölkələrdən fərqli olaraq, Azərbaycan dini tolerantlığa gözəl nümunə ola biləcək ölkə olaraq adlandırılır (Məmmədova 2016/2, 99). H.Əliyevin Azərbaycanda pravoslav və katolik kilsə rəhbərləri ilə rəsmi görüşlərinə, yeni məbədlərinin açılışına dair vizuallardan nümunələr verilərək dini tolerantlığın dövlət siyasəti olduğu düşüncəsi ön plana çıxarılır. XXI əsrin qlobal mövzusuna çevrilmiş tolerantlığın ən aydın tərifinin H.Əliyevə məxsus olduğu, bu tərifdə dini tolerantlığın digər xüsusiyyətləri ilə yanaşı, "*...dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülüyü*" (Məmmədova 2016/2, 85) ön plana çıxarılır. H.Əliyevin əsasını qoyduğu bu uğurlu siyasəti hazırda prezident İlham Əliyevin davam etdirdiyi (Məmmədova 2016/2, 99)

qeyd olunur. Azərbaycanda dini dözümlülük siyasətinin həyata keçirilməsində və xalqın dini maariflənməsinə dair Qafqaz Müsəlmanları İdarəsinin və Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin fəaliyyətləri vurğulanır (Məmmədova 2016/2, 104).

Dərsliklərdə insan hüquqları və tolerantlıq fonunda dinə yer ayrılmasının zəruriliyi ilə yanaşı, dinin həm tarixdə, həm də müasir dövrdə tolerantsızlıq və terror məqsədilə də istifadə olunduğunun nümunələrinə yer verilir, din ekstremizm və terrorla münasibətdə də dəyərləndirilir. Məsələn, 9-cu sinif dərsliyində "Tolerantlıq" mövzusu, Fransua Dübüanın eyniadlı rəsminin də yerləşdirildiyi "Varfolomey gecəsi"nin təsviri ilə başlayır. 1572-ci ildə Parisdə katoliklərin protestantlara qarşı törətdiyi qətliam "ağ xaç işarəsi" və "kilsə zəngi ilə qətliama başlanması" kimi dini motivli ifadələrlə zənginləşdirilmiş dillə təsvir edilir və "dini zəmində baş verən bu hadisə yalnız Fransanın deyil, bütün Avropanın tarixində silinməz bir ləkə" adlandırılır (Məmmədova 2016/2, 82). Eyni mövzuda İspaniyada "katolik olmayanların inkvizisiyaya məruz qoyulması" (Məmmədova 2016/2, 83) nümunəsi də dini fərqliliyinə görə insanların təqib və zorakılığa məruz qalmasına misal göstərilir. Sırf dini dözümsüzlük zəminində olmamaqla birlikdə yəhudilərlə əlaqəli "Holokost" hadisəsi də fərqliliklərə qarşı dözümsüzlüyə nümunə olaraq verilir. Tolerantlıq mövzusu çərçivəsində insanların hər hansı bir fərqinə görə qırğına məruz qaldığı hadisələrə nümunə olaraq, II Dünya müharibəsində "milyonlarla yəhudinin milli mənsubiyyətinə görə" məhv edilməsi bu kimi qırğınların ən böyüyü olaraq göstərilir (Məmmədova 2016/2, 83).

Tarixdə dini zəmində fərqliliklərə qarşı təqib və zorakılığın müasir dövrdə də davam etdirilməsi riski vurğulanır. Xüsusilə xarici ölkələrdən gələn zərərli dini ədəbiyyatın, informasiyanın təbliğinin, xalqımızın milli təfəkkürünə yad olan dini radikal çağırışların qarşısının alınması, xarici ölkələrdə yerləşən dini-terror qruplaşmaları ilə əlaqədə olan bəzi dini təşkilatların fəaliyyətinin nəzarətdə saxlanması, ictimai asayişin pozulmasına, şəxsiyyətin şərəf və ləyaqətinin alçaldılmasına istiqamətlənən bu kimi qanuna zidd fəaliyyətlərin qarşısının alınmasına dair (Məmmədova 2016/2, 105) fəaliyyətlər qeyd olunur.

Digər tərəfdən, dini ekstremizm və terror kontekstində islamla əlaqəli qərəzli ictimai rəyin mövcud olduğu və bu düşüncələrin ortadan qaldırılmasının müsəlmanların da öhdəsinə düşdüyü dərsliklərdə vurğulanan bir digər məsələdir. İslam dininin digər inanclara qarşı dözümlü bir din olduğu və bunun Azərbaycanın tarixən tolerant ölkə olmasında da böyük rolu olduğu H.Əliyevin sözlərindən sitatla dəstəklənir (Məmmədova 2016/2, 103).

## Nəticə

1-9-cu sinif "Həyat bilgisi" dərsliklərində dinə baxışın araşdırılması nəticəsində təsbit olunan məsələləri məzmun və metodologiya baxımından qruplaşdırmaq olar.

Ümumilikdə dərsliklərdə dinlərin təqdim olunmasında plüralist yanaşma hakimdir. Dinlər hər hansı yönlərinə görə tənqid olunmadan, deskriptiv şəkildə

təqdim olunur. Dinin mənşəyi, Allah, peyğəmbər, vəhy kimi "möcüzəvi" faktlarla əlaqəli fikirlər əsasən bu və yaxud digər "*dinə görə...*", "*dinlərin müqəddəs kitablarına görə...*", "*müsəlmanlara/xristianlara/yəhudilərə görə...*", "*mənbələrə görə...*" və s. kimi nisbət ifadələrindən istifadə olunaraq verilir, məlumatların mütləq həqiqət və yaxud müəllifin subyektiv fikri kimi təqdim olunmasının mümkün olduğu qədər qarşısı alınır.

Dinlər haqqında məlumat məzhəblərüstü üslubla verilir. Dərsliklərdə qrupları qeyd olunan yeganə din olaraq xristianlığın protestantlıq, katoliklik və pravoslavlıq kimi qollarından danışılarkən "məzhəb" deyil, "kilsə" terminindən istifadə olunur.

Azərbaycanın dini demoqrafiyası diqqətə alınaraq dərsliklərdə islam dini ilə əlaqəli məlumatlara daha təfərrüatlı şəkildə yer verilir. Bununla birlikdə, alt standartlarında islam dininə dair biliklərin öyrənilməsi tələbi qoyulan 4-cü sinif dərsliyi istisna olmaqla, digər dərsliklərdə din, camaat, müqəddəs kitab və məbəd kontekstində xristianlıq və yəhudilik islamla birlikdə qeyd olunur.

Yuxarıda qeyd olunan müsbət cəhətlərlə yanaşı, dinlərin təqdim olunması iləəlaqəli bəzən ziddiyyətli fakt, yozum və təkrarlara rast gəlinir. Bundan başqa, dinlərlə əlaqəli məlumatların sistematik şəkildə tərtib olunmaması diqqət çəkir. Bəzən alt standartların tələblərinin yerinə yetirilməsi məqsədilə dinlərin inanc, ibadət, əxlaq və ictimai strukturu ilə əlaqəli təfsilatlı məlumat verilərkən, məlumatın əhəmiyyət dərəcəsinin və şagirdin yaş psixologiyasının diqqətə alınmadığı nümunələrə də rast gəlinir. 6-cı sinif dərsliyində "3.3.1. dini ibadət və mərasimləri müqayisə edir" alt standartının tələblərinə cavab vermək məqsədilə yəhudilikdəki Şənbə günü mərasimi ilə əlaqəli "xeyir-dua verilmiş şərab" və yaxud Pesax bayramında içmək üçün "alkoqolsuz şərab" kimi ifadələri nümunə göstərmək olar.

Xüsusilə hinduizm, buddizm, caynizm, daoizm kimi şərqmənşəli dinlərlə əlaqəli məlumatların təqdimatında standart bir metod və sistemdən istifadə olunmadığı, bu dinlərin bəziləri ilə əlaqəli məlumatın yalnız dinin adından ibarət olduğu faktlarına təsadüf edilir.

Daha əvvəl qeyd olunduğu kimi, bu tədqiqatın sərhədləri "Həyat bilgisi" dərsliklərində ümumilikdə dinə baxışın araşdırılması ilə məhdud olduğuna görə, ayrı-ayrılıqda dinlərlə əlaqəli məlumatların təhlilinə yer verilməyib. Dinə baxışla əlaqəli qeyd olunan təsbitləri nəzərə alaraq, "Həyat bilgisi" dərsliklərində dinlə əlaqəli mövzuların təqdimi zamanı aşağıda qeyd olunan məsələlərə yenidən baxmaq məqsədəuyğundur:

Məzmun xətti, əsas standart və alt standartlar diqqətə alınaraq 1-9-cu siniflər üçün dinlə əlaqəli məlumatların nəzərdən keçirilərək çərçivəsinin yenidən müəyyənləşdirilməsi;

Tədris olunmasına qərar verilən çərçivə daxilindəki materialların şagirdlərin yaş psixologiyası və standartlar da diqqətə alınaraq yenidən təqsim olunması;

Materialların təqdimi zamanı mətn, vizual, sual və tapşırıqlar baxımından faydasız təkrarlara yol verilməməsi;

Dinlərlə əlaqəli məlumatların inanc, ibadət, əxlaq və ictimai struktur kimi komponentlərin diqqətə alınaraq qruplaşdırılması.

Yekun olaraq, ümumilikdə dinin, xüsusilə islamın müasir cəmiyyətdəki rolu nəzərə alınaraq, məlumatsızlıq qədər natamam və səhv məlumatın da yaradacağı fəsadların qarşısını almaq məqsədilə, "Həyat bilgisi" dərsliklərindəki dini biliklərin metodologiya və məzmun cəhətdən dinşünaslıq və pedaqogika elmlərinin müştərək metodları çərçivəsində yenidən tədqiq olunması nəticəyönümlülük baxımından faydalı olar.

## ƏDƏBİYYAT

1. *Andreassen Bengt-Ov, 2014,* Theoretical Perspectives on Textbooks/Textbooks in Religious Studies Research, Textbook Gods: Genre, Text and Teaching Religious Studies (Edited by Bengt-Ove Andreassen, James R. Lewis), Sheffield, Equinox, 2014, pp.1-15.

2. Azərbaycan Respublikasının Ümumtəhsil Məktəbləri Üçün Həyat Bilgisi Fənni Üzrə Təhsil Proqramı (Kurikulumu) (I-IX siniflər), Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Bakı, 2013.

3. Brian J. Grim, "International Religion Indexes: Government Regulation", Interdisciplinary Journal of Research on Religion, Vol 2, 2006, pp. 1-40.

4. Eisner Elliot W., 1987, Why the textbook influences curriculum, Curriculum Review, 26 (3), pp. 11–13.

5. Əzizova Elnurə, 2015, Azərbaycan cəmiyyətindəki dindarlıq səviyyəsinin İslam dünyasındakı dindarlıq səviyyəsi ilə müqayisəsi, Azərbaycanda İslam: Dini Araşdırmalar Mərkəzinin keçirdiyi sosial sorğu nəticəsində hazırlanmış məqalələr toplusu, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı, s. 52-75.

6. Fleming Dan, 1990, High school social studies textbooks: Good or bad compared to what? The International Journal of Social Education, 4, pp. 7–9.

7. Hahl Kaisa, 2015, Diversities and Interculturality in Textbooks: Finland as an Example (ed. Kaisa Hahl, Pia-Maria Niemi, Rita Johnson Longfor and Fred Dervin), Cambridge Scholars Publishing, UK.

8. İbrahimova *Aybəniz, Mehdiyeva Gülər, İbrahimov Saməddin.* 2014, "Həyat bilgisi" – 2, Aspoliqraf, Bakı.

9. Jackson Robert, Miedema Siebren, Weisse Wolfram, Willaime Jean-Paul (Eds), 2007, Religion and Education in Europe Developments: Contexts and Debates, Munster: Waxmann Verlag GmbH.

10. Kərimova Bahar, Mehdiyeva Gülər, 2018, "Həyat bilgisi" – 1, Aspoliqraf – Bakı.

11. Kramsch Claire, 2013, History and memory in the development of intercultural competence. In F. Sharifian & M. Jamarani (Eds.), Language and

Intercultural Communication in the New Era (pp. 23–37). New York, NY: Routledge.

12. Mehdiyeva *Gülər, Bayramova Firəngiz,* 2014, “Həyat bilgisi” – 3, Aspoliqraf, Bakı.

13. Mehdiyeva Gülər, Kərimova Bahar, 2015, “Həyat bilgisi” – 4, Aspoliqraf, Bakı.

14. Məmmədova Nüşabə, Bəhramova Sevinc, 2015, “Həyat bilgisi” – 8, “Şərq-Qərb”, Bakı.

15. Məmmədova Nüşabə, Mahmudova Könül, 2017, “Hayat Bilgisi” – 6, “Şərq-Qərb”, Bakı.

16. Məmmədova Nüşabə, Mahmudova Könül, Bağmanlı Aynur, 2016/1, “Həyat bilgisi” – 5, “Şərq-Qərb”, Bakı.

17. Məmmədova Nüşabə, Mahmudova Könül, Bəhramova Sevinc, 2014, “Həyat bilgisi” – 7, “Şərq-Qərb”, Bakı.

18. Məmmədova Nüşabə, Mahmudova Könül, Bəhramova Sevinc, 2016/2, “Hayat Bilgisi” – 9, “Şərq-Qərb”, Bakı.

19. Pingel Falk, 2010, UNESCO Guidebook on Textbook Research and Textbook Revision. Paris, France: UNESCO.

**Cədvəl 1. I-IV siniflərdə "Həyat bilgisi" fənninin məzmun xətləri üzrə əsas və alt-standartlarının cədvəli**

| Sinif | I sinif | II sinif | III sinif | IV sinif |
|---|---|---|---|---|
| **Məzmun xətti- 3** | **Mənəviyyat** | | | |
| **Əsas standart - 3.3.** | **Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir** | | | |
| **Alt standart 3.3.1.** | Təsvirlərdə dini rəmzləri (ibadətgahlar, nişanlar, dini kitablar, əşyalar) fərqləndirir. | Nümunələr əsasında müxtəlif dinlərin mövcudluğunu izah edir. | Dinin mahiyyətini sadə formada şərh edir. | İslam dininin böyük şəxsiyyətlərini tanıyır. |
| **Alt standart 3.3.2.** | Dinlər haqqında ilkin təsəvvürlərini sadə şəkildə izah edir. | Dinlərin ümumi cəhətlərini izah edir. | Dinlərin təbliğ etdiyi dəyərləri şərh edir. | İslam peyğəmbərinin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar edir. |
| **Alt standart 3.3.3.** | | | Peyğəmbərləri və səmavi kitabları tanıyır. | Dini dəyərlərlə xurafatı fərqləndirir. |

**Cədvəl 2. V-IX siniflərdə "Həyat bilgisi" fənninin məzmun xətləri üzrə əsas və alt-standartlarının cədvəli**

| Sinif | V sinif | VI sinif | VII sinif | VIII sinif | IX sinif |
|---|---|---|---|---|---|
| **Məzmun xətti 3** | **Mənəviyyat** | | | | |
| **Əsas standart 3.3.** | **Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir** | | | | |
| **Alt standart3.3.1.** | Dini inamların ümumi və fərqli cəhətlərini müqayisə edir. | Dini ibadət və mərasimləri müqayisə edir. | Dini əxlaqi dəyərlərin mədəniyyətlərin formalaşmasına təsirini şərh edir. | Cəmiyyətdə birgəyaşayış qaydalarının formalaşmasında dini əxlaqi dəyərlərin rolunu qiymətləndirir. | Müxtəlif dinlərə münasibətdə tolerantlıq nümayiş etdirir. |

**Cədvəl 3. I-IX siniflər üzrə "Həyat bilgisi" dərsliklərindəki dini biliklərin statistikası**

| Sinif | Müəllif | Nəşr ili | Ümumi səhifə | Dinlə əlaqəli mövzu | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | Adı | səhifə sayı | dərslik-dəfaizi | söz sayı | vizual sayı |
| **I** | Kərimova B., Mehdiyeva G. | 2018 | 71 | - Din | 2 | 2.8 % | 104 | 11 |
| **II** | İbrahimova A., Mehdiyeva G., İbrahimov S. | 2014 | 70 | - Dinlər | 2 | 2.9 % | 137 | 7 |
| **III** | Mehdiyeva G., Bayramova F. | 2014 | 96 | - Dünya dinləri | 2 | 2.1 % | 421 | 3 |
| **IV** | Mehdiyeva G., Kərimova B. | 2015 | 104 | - İslam dini necə yarandı?<br>- İslam dininin yayılması<br>- Mövhumat nədir | 6 | 5.8 % | 1189 | 7 |
| **V** | Məmmədova N., Mahmudova K., Bağmanlı A. | 2016 | 102 | - Dini dözümlülük<br>- Səmavi və qeyri səmavi dinlər<br>- İnanc sistemində oxşarlıq və fərqlər | 6 | 5.8 % | 1005 | 11 |
| **VI** | Məmmədova N., Mahmudova K. | 2017 | 88 | - Dini ibadətlər və mərasimlər | 3 | 3.4 % | 644 | 6 |
| **VII** | Məmmədova N., Mahmudova K., Bəhramova S. | 2014 | 79 | - Din və mədəniyyət | 3 | 3.8 % | 457 | 6 |
| **VIII** | Məmmədova N., Bəhramova S. | 2015 | 78 | - Dini-əxlaqi dəyərlər | 5 | 6.4 % | 1219 | 3 |
| **IX** | Məmmədova N., Mahmudova K., Bəhramova S. | 2016 | 135 | - Tolerantlıq<br>- Mədəniyyətlərarası tolerantlıq<br>- Azərbaycanda dini tolerantlıq<br>- Dünyada müxtəlif dinlərə münasibət. Multikulturalizm<br>- Dünyanın dərk olunması | 37 | 27.4 % | 6021 | 63 |

***доц. Эльнура Азизова***

## ВОСПРИЯТИЕ РЕЛИГИИ В АЗЕРБАЙДЖАНСКИХ УЧЕБНИКАХ ПО ПОЗНАНИЮ МИРА: КОЛИЧЕСТВЕННЫЙ И КАЧЕСТВЕННЫЙ АНАЛИЗ

### РЕЗЮМЕ

В государственных школах Азербайджанской Республики нет обязательного религиозного курса. Религиозные знания предоставляются учащимся в рамках курсов по Познанию мира, которые преподаются в средних школах (1–9 классы). Школьники изучают основы религий в первую очередь, как основную часть общего мировоззрения. С другой стороны, рассмотрение этических и моральных ценностей, как основной части школьного образования происходит посредством религиозного образования.

Цель этой статьи - изучить восприятие религии в учебниках по познанию мира, которые охватывают классы от первого до девятого классов школьной жизни. Эти учебники анализируются на основе их методов, содержания и наглядных материалов, используемых для представления религии для возрастной группы 6–15 лет. Количественный контент-анализ и качественный предметный анализ будут использованы в исследовании. Информация о религии классифицируется с разных точек зрения. Следующие вопросы анализируются качественным методом: как религия в целом представлена в учебниках по познанию мира? В свете, каких основных понятий представлена религия? Представлены ли религии через сектантский подход? Насколько учитывается специфическая религиозная демография Азербайджана?

***Ключевые слова:*** *религиозное образование, школьное образование, учебник по Познанию мира, Азербайджан*

***Assoc. Prof. Elnura Azizova***

## PERCEPTION OF RELIGION IN AZERBAIJANI LIFE SCIENCE TEXTBOOKS: QUANTITATIVE AND QUALITATIVE ANALYSIS

### ABSTRACT

Compulsory religious courses are not taught in primary and secondary schools of the Republic of Azerbaijan. Religious knowledge is provided to students within the framework of Life Science courses taught in primary and secondary education (grades 1-9). School students study the basics of the world religions as a core part of

the general worldview in the first place. On the other hand, they master universal ethical and moral values as a principal part of their school education in a systematic way.

The purpose of this article is to examine perception of religion in Life Science textbooks that covers the grades ranging from the first to the ninth. These textbooks are analyzed on the basis of their methods, content and visuals used for the representation of religion/s for the 6-15 age group. Quantitative content analysis and qualitative subject analysis are utilized in the study. The information about religion is classified from various standpoints. The following questions are analyzed by the qualitative method: How is the religion, as a whole represented in Life Science textbooks? What specific language is used for representing the religion/s? Are the religions represented through the sectarian approach? To what extent is the specific religious demography of Azerbaijan considered?

***Keywords:*** *religious education, school education, Life Science textbook, Azerbaijan*

**Çapa tövsiyə etdi: i.ü.f.d.A.M.Şirinov**